# Qazaxda turizmin inkişafı



Müasir dünyada bir çox ölkələrin iqtisadiyyatının əsasını turizmdən əldə olunan gəlir təşkil edir. Azərbaycan həddindən artıq turizm potensialına malik olan bölgələrdən biridir. Məhz buna görə son on ildə ölkədə turizmin inkişafı ilə bağlı geniş təbliğat aparılır və əlverişli şərait yaradılır. Ölkə Prezidenti İlham Əliyev bütün sahələrlə yanaşı, turizmin inkişaf etdirilməsi üçün də bir sıra vacib qərar və sərəncamlara imza atır. Dövlətimizin başçısı "Turizmin inkişafı ilə bağlı əlavə tədbirlər planı haqqında" müvafiq sərəncam imzalamışdır. Ölkənin bir çox yerlərində olduğu kimi Qazax rayonunda da turizmin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır.

Məlumdur ki, son illərdə Qazaxda bütün sahələrdə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun rəhbərliyi ilə dinamik inkişaf müşahidə olunur. Qazax respublikanın qərb tərəfdən giriş qapısı olduğundan burada hər an əcnəbi qonaqların, eləcə də, respublikanın digər bölgələrindən insanların rayona təşrif buyurması qaçılmazdır. Rayonda gəzməli, görməli yerlər kifayət qədərdir. Bunlardan biri haqqında—məşhur "Damcılı bulaq"dan söhbət açmaq istərdik. Elə bu məqsədlə qeyd olunan məkana yollandıq. "Damcılı bulağ"ı Qazax şəhərindən 10-12 km aralı Daş Salahlı kəndinin günbatan tərəfində "Avey" dağının Cənub-şərq ətəyində böyük bir mağaranın içərisində yerləşir. Yarımdairəvi, qövsvari şəklindədir, qabaq hissəsi açıqdır. Su damcıları qayaların içindən süxurların arasından və dağ otlarının yarpaqlarından şeh-şeh, dənə-dənə mirvari kimi süzülüb ovucda yığılaraq bulaq olur. Damcılı yeganə bulaqdır ki, suyu daşlardan süzülüb gəlir. Deyilənə görə insanlar su daşı düzəltməyi də Damcılıya baxandan sonra öyrəniblər. Damcılı bulaq dünyada analoqu olmayan nadir mənzərəli bir təbiət möcüzəsidir.



Daş Salahlı kəndinin mərkəzindən Damcılı bulağa gedən yolun uzunluğu 3 km-ə bərabərdir. Əvvəllər bu yol həddindən artıq bərbad vəziyyətdə olmuşdur. Bulağın ərazisində isə tamamilə antisanitar vəziyyət hökm sürmüşdür. Buraya gələn insanlar ərazinin istənilən yerində yemək bişirirərək, kabab çəkərək bir sözlə bu gözəl məkanı zibilliyə çevirirdilər. Demək olar ki, buraya turist qismində gələn insanlar bir daha gəlmirdi. Qazax Rayon İcra hakimiyyətinin başçısı Rəcəb Babaşovun Damcılı bulağa gəlişindən sonra hər şey dəyişdi. Rayon rəhbəri dərhal öz tapşırıqlarını verdi. Qısa zaman kəsiyində burada yüksək səviyyəli quruculuq-abadlıq işlərinə start verildi. Daş Salahlı kəndinin mərkəzindən 3 km uzunluğunda müasir tələblərə cavab verən asfalt yol çəkildi. Qoruğun ərazisində yol kənarlarına 500-dən çox ağac əkildi. İstirahət məkanında xüsusi səliqə-sahman yaradılaraq çoxlu sayda dekorativ ağac və gül kolları əkildi, ailəvi istirahət etmək üçün xüsusi oturacaq yerləri quraşdırıldı. Qeyd etmək lazımdır ki, əvvəllər burada sanitar qovşaq belə olmamışdır. Ərazidə yeni, bütün tələblərə cavab verən sanitar qovşaq inşa olunaraq istifadəyə verilmişdir. Yemək bişirmək üçün ayrıca yer təşkil olunmuşdur. Əraziyə xüsusi nəzarət olunur. Bir sözlə "Damcılı bulaq" füsunkar gözəlliyə malik olan, turistləri özünə cəlb edən bir istirahət məkanına çevrilmişdir. Hazırda təbiətin nadir incisi olan "Damcılı bulaq" yeni ailə quran gənclərin, əsgəri xidmətə gedənlərin, ali məktəbə qəbul olanların və digərlərinin ziyarətgahına çevrilmişdir. Son zamanlarda "Damcılı bulaq"da yerli sakinlərlə yanaşı respublikanın digər bölgələrindən, eləcə də qonşu Gürcüstan, Rusiya, Malayziya, Pakistan, Yaponiya və başqa yerlərdən gələn turistləri də görmək olar. Sözün əsl mənasında "Damcılı bulaq" buraya təşrif buyuran turistlərin heyrətinə səbəb olmuşdur. Ötən mövsümdə turistlərin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunmuşdur. Əminliklə qeyd etmək lazımdır ki, Qazaxda yaradılan şərait turizmin inkişafına müsbət təsir edəcəkdir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

## Sosial həyat